Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Azərbaycan regionda inteqrasiyanın yeni formalarını tətbiq edir...

**Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri də beynəlxalq münasibətlər sisteminə sürətli inteqrasiya və qlobal əməkdaşlığın inkişaf etdirilməsi olub. Bu gün Azərbaycan regionda mühüm geosiyasi mərkəzə çevrilməklə yanaşı, qlobal miqyasda da etibarlı tərəfdaş kimi tanınır.**



1992-ci ildə BMT-yə üzv qəbul olunması Azərbaycanın beynəlxalq arenaya qayıdışının ilk mühüm addımı oldu. Sonrakı illərdə Avropa Şurası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlara qoşulmaqla ölkə qlobal dialoqun fəal iştirakçısına çevrildi. 2019-2023-cü illərdə Azərbaycan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi. Bu dövrdə ölkə inkişaf etməkdə olan dövlətlərin maraqlarını müdafiə etməklə yanaşı, qlobal pandemiya dövründə humanitar yardımlar təşkil etdi, həmrəyliyin gücləndirilməsinə xidmət edən təşəbbüslərlə çıxış etdi. Azərbaycanın bu platformadakı fəallığı onun beynəlxalq nüfuzunu xeyli artırdı.

**Dövlətimiz özünün inkişaf modelini müəyyənləşdirir**

Strateji baxımdan əlverişli, mühüm geostrateji mövqeyə malik olan Azərbaycan ictimai-siyasi və mədəni-mənəvi həyatın bütün sahələrində özünəməxsus xüsusiyyətlərini yaşatmaqla yanaşı, dünya birliyinə inteqrasiya olunmaq xəttini seçib. Bu seçimi reallaşdırmaq istiqamətində dövlətimiz bir tərəfdən dünya təcrübəsini öyrənərək özünün inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən beynəlxalq aləmdə qəbul edilmiş ölçülərə uyğun olaraq öz milli maraqlarını qorumaq üçün dövlətlərarası əlaqələrə böyük önəm verir. Bu da tamamilə təbiidir. Çünki hər bir ölkənin daxili iqtisadi, siyasi və mənəvi tələbatının ödənilməsi onun dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasını və inkişafını, milli maraqlarına cavab verən xarici siyasət yürüdülməsini tələb edir.

**Azərbaycan son vaxtlar region dövlətləri ilə inteqrasiyaya xüsusi önəm verir**

Prezident İlham Əliyev çıxışlarının birində deyib ki, Azərbaycan dünya birliyinə inteqrasiyanı daim ümdə vəzifələrdən biri kimi tutub. Ölkəmizin dünya birliyinə inteqrasiyası dövlətimiz üçün, onun inkişafı üçün, müasir dövrün tələblərinə uyğun texnologiya, elm-təhsil əldə etmək üçün vacib addımlardır. Ümumilikdə, Azərbaycan son vaxtlar region dövlətləri ilə inteqrasiyaya xüsusi önəm verir. Bu inteqrasiyanın yeni formalarını tətbiq edir. Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Azərbaycanın tamhüquqlu iştirakçı qismində adıçəkilən formata qoşulmasına dair qərar qəbul edilib. Azərbaycanın bu platformada yer alması ölkəmizin həyata keçirdiyi çevik xarici siyasətin məntiqi nəticəsidir. Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur. Bundan başqa Azərbaycan, İran və Rusiya arasında üçtərəfli anlaşma memorandumu imzalanıb. Memorandumun imzalanması üçtərəfli əməkdaşlığın uzunmüddətli inkişafında və "Şimal-Cənub" marşrutunun qərb istiqamətinin effektivliyinin artırılmasında mühüm addım olacaq. Sənəd tarif yanaşmalarının uzlaşdırılmasını, vahid kompleks tarifin formalaşdırılmasını, blok-qatarların buraxılmasını və daşımalar üzrə prosedurların təkmilləşdirilməsini nəzərdə tutur. Bu mexanizmlərin həyata keçirilməsi Rusiya, Azərbaycan və İran arasında daha proqnozlaşdırıla bilən, sürətli və iqtisadi cəhətdən səmərəli logistika zəncirinin qurulmasına imkan verməlidir.

Bütün bunları ekspertlər necə dəyərləndirir?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının fikrincə, Azərbaycanın inteqrasiya sahəsində son vaxtlar atdığı addımlar ölkəmizin həm dünya səviyyəsində nüfuzunun artmasından, həm də regionda qalib dövlət olaraq əsas söz sahibi olmasından irəli gəlir: "Əvvəla, bu əməkdaşlıq türk birliyi əməkdaşlığı ilə başlayıb, inkişaf edir. Bu yaxınlarda Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının 7-ci Məşvərət görüşündə iştirakı və ora üzv olması bu əməkdaşlığı daha da inkişaf etdirir. Bundan başqa, hələ sülh sazişi imzalanmamış Azərbaycan ərazisindən Ermənistana taxılla yüklənmiş vaqonların buraxılması önəmli hadisədir. Bu, gələcəkdə regionda həm sülhün bərqərar olunmasına, həm əməkdaşlığın inkişafına mühüm təsir edir. Bütün bunlar gələcəkdə Zəngəzur dəhlizinin açılmasına mühüm təsir göstərəcək. Zəngəzur dəhlizinin açılması Azərbaycanın Şərqlə Qərb arasında körpü rolunu oynaması deməkdir. Zəngəzur dəhlizi ilə yanaşı, Araz dəhlizin də fəaliyyət göstərməsi bu inteqrasiyanı daha da gücləndirəcək. Digər tərəfdən, "Şimal-Cənub" nəqliyyat dəhlizi də Azərbaycandan keçir. Bu da Rusiya ilə İran arasında iqtisadi əlaqələrin inkişafında Azərbaycanın rolunu gücləndirir. Yeni tarixən həmişə Azərbaycan strateji cəhətdən ərazidə yerləşməsinə görə çox böyük müsibətlər çəkib, işğallara məruz qalıb. Ancaq indi müstəqil, güclü dövlət olandan sonra ölkəmizin bu cür əlverişli strateji ərazidə yerləşməsi, Azərbaycanın dünyaya inteqrasiyasına, iqtisadi cəhətdən inkişafına təkan verəcək. Bütün bunlar hamımızı sevindirir. Dünyada Azərbaycanın nüfuzunun artması, ərazimizin dünya ölkələri üçün əməkdaşlıq körpüsünə çevrilməsi, artıq dünyada gedən proseslərə Azərbaycanın təsir imkanlarının olduğunu göstərir".

*Vidadi ORDAHALLI*

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***